# Səksən yaşın hesabatı...

**Xalqımızın yaşam tarixinin ən böyük nailiyyətlərindən biri onun milli sərvəti olan Azərbaycan dilidir. Hər bir dil mənsub olduğu xalqın düşüncə və yaşam tərzinin göstəricisi olduğu kimi, həm də həmin xalqın keçib gəldiyi yolların silinməyən izlərini özündə qoruya bilir. Dilimizdəki həmin xəzinənin axtarışına ilk dəfə çıxansa böyük Mahmud Kaşğari olub.**

On illər ərzində türklər yaşayan əraziləri gəzib topladığı zəngin materiallar əsasında ərsəyə gətirdiyi "Divani luğət-it türk" nəinki toplanılmış materialların zənginliyinə, həmçinin ensiklopedik xarakterinə görə əvəzsiz, unukal idi. Təsadüfi deyil ki, ondan sonra gələnlər M.Kaşğarini minnətdarlıqla ortaq türk dilçiliyinin və ümumilikdə türkşünaslığın banisi olaraq qəbul ediblər. Mahmud Kaşğaridən üzü bəri gələn qədim və orta əsr dil tədqiqatçılarının elmi araşdırmaları, birmənalı demək olar ki, Kazan və Peterburq universitetlərinin professoru, dünya şərqşünasları cərgəsinə adını yazdırmağı bacaran Mirzə Kazım bəyin şəxsində yeni keyfiyyət mərhələsinə qədəm qoydu.

Bu gün də bütün varlığı ilə özünü elmə həsr edən insanlarımız var və həmin insanlar arasında filologiya elmlər doktoru, professor Qara Məşədiyevin adını xüsusi olaraq çəkə bilərik. Qara Məşədiyevi şəxsən tanıyanlar, onun çoxillik elmi araşdırmalarına bələd olanlar bu arı kimi zəhmətkeş və görkəmli elm adamının Azərbaycan dilinə necə doğma və həssas yanaşmasının şahididirlər. Uzun illərdir ki, Qara müəllimlə elm yolunda addımlayan insanlar və onu yaxından tanıyanlar yaxşı bilirlər ki, 80 illiyini qeyd etməyə hazırlaşan alim ömrünün 50 ilini həsr etdiyi Azərbaycan dilçilik elmində ancaq elmi əsərləri ilə deyil, dünəninə ehtiram, gələcəyinə ümidlə baxan bir elm adamıdır.

Azərbaycan Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunda elmi fəaliyyətə başladığı ilk vaxtlardan o, müasir Azərbaycan dilində nisbətən tədqiqatdan kənarda qalan sahələri araşdırmağa başlamışdır. Təsadüfi deyil ki, Qara Məşədiyevin namizədlik dissertasiyasının mövzusu da həmin "kənarda qalmış" sahələrdən biri ilə bağlı olub: "Müasir Azərbaycan ədəbi dilində adlıq cümlə". Hesab edirik ki, Qara müəllimin bu mövzuya müraciət etməsi daha çox Azərbaycan ədəbi dilinin dərinliklərinə hopmuş canlı danışıq dilinin məxsusi özəlliklərinin araşdırılması olmuşdur. Həmin özəlliklər-söz- cümlər, yarımçıq cümlələr, sual cümləsi, xitablar danışıq nitqində fikrin ifadəsində xüsusi yer tutur. Uzun müddət Azərbaycan dilçiliyində söz-cümlə ilə bağlı fərqli baxışlar olmuş və nəticədə söz- cümlələrin təktərkibli olması, onun əksər hallarda adlıq cümlə ilə müqayisəsi onların bir-birinə bənzədilməsinə səbəb olurdu. Qara Məşədiyev ilk dissertasiya işində oxşar qənaətgələnləri inandıra bildi ki, onlar tamamilə müxtəlif sintaktik vahidlərdir: ümumiyyətlə, adlıq cümlələr nominativ xarakter daşıyır, söz- cümlələr isə bu funksiyadan məhrumdur.

Yeri gəlmişkən, ümumilikdə alimin sintaksisdə uzun müddət mübahisə predmeti olan digər məsələlərə də elmi yanaşmalarının yer aldığı, 1981-ci ildə onun həmmüəllifliyi ilə "Elm" nəşriyyatında çap olunan "Müasir Azərbaycan dili" kitabında geniş yer verildi. Yeri gəlmişkən, həmin kitabda o zamanlar üçün dilçiliyimizdə mübahisəli sayılan bir sıra sualların cavabı o qədər arqumentli və məntiqi oldu ki, həmin cavablar elmi ictimaiyyət tərəfindən birmənalı olaraq qəbul edildi. Əlbəttə, bütün bunlar Qara müəllimin gələcək elmi nəticələrdə onu hədəfə doğru aparan yolların kiçicik bir hissəsi idi və az keçmədi ki, alimin 1985-ci ildə çap olunan "Azərbaycan dilinin semasiologiyası", "Azərbaycan dilinin onomastikası", həqiqətən hər bir elm adamının həsəd aparacağı zəhmət və ardıcıllığın nəticəsi olaraq, 1990-cı ildə ortaya qoyulan "Zaqafqaziyanın Azərbaycan toponimləri" kitabları elmi ictimaiyyətin müzakirəsinə verildi. Ümumiyyətlə, Qara Məşədiyevin həmin illərdəki 15 illik elmi fəaliyyətinin diqqətçəkən bir məqamı haqqında onu demək lazımdır ki, bu görkəmli alimin araşdırmalarının istiqamətini ancaq dilçilikdə deyil, ümumiyyətlə, Azərbaycan xalqının həyatında rol oynayan bir sahəyə yönəldilməsini vətəndaşlıq məsuliyyəti ilə bağlamaq lazım gəlir. Söhbət alimin Azərbaycan dilinin onomastikası ilə bağlı elmi yaradıcılığından gedir. Bu zaman, sözsüz ki, Azərbaycan ədəbi dilinin zəngin lüğət tərkibinin dərin qatlarındakı özəlliklərin cazibəsi yada düşür. Dilin lüğət tərkibində özünün min illərlə saxladığı onomastik leksikanın, xüsusi adlar silsiləsinin öyrənilməsi özünüdərki sözlərdə ehtiva edən dilin tarixini, keçmişini işıqlandıra biləcək ən yaxşı vasitə ola bilərdi.



O məqamı qeyd edək ki, respublikada Azərbaycan dilinin statusu ilə bağlı və dilimizin müxtəlif sahələr üzrə araşdırılması işində Qara Məşədiyev də yaxından iştirak etmişdir. Onun doktorluq dissertasiyası kimi işlədiyi "Qafqazın ərazi və tayfalarının təsviri materialları məcmuəsində (SMOMPK) qeydə alınmış onomastik vahidlərin tarixi-etimoloji təhlili" adlı mövzusu isə yenə öz aktuallığı ilə fərqlənirdi. Alimin xüsusi əməyi və gərgin zəhməti nəticəsində əmələ gələn dissertasiya işi ona görə maraqlı idi ki, o, böyük bir arealın və kifayət qədər çoxlu dil vahidlərinin tədqiqinə həsr edilmişdi. Bu baxımdan alimin doktorluq dissertasiyasının elmi ictimaiyyətdə doğurduğu böyük maraq başa düşüləndir. Həmin araşdırmalarında Qara Məşədiyevin onomostik tədqiqata cəlb etdiyi vahidlərin tarixi-etimoloji təhlili təsdiq edirdi ki, Azərbaycan xalqının tarixi neçə min illərdir ki, bu torpaqlarla bağlıdır.Tədqiqatlardan çıxan elmi nəticələr Azərbaycan xalqının tarixi vətəni ilə nə qədər dərindən çulğalaşdığını göstərmək, sübut etmək baxımından xüsusi ilə əhəmiyyət daşıyırdı.

Doktorluq dissertasiyası haqqında isə onun özü belə xatırlayır: "Dissertasiya işini 17 ilə yazmışam, çünki mövzum geniş bir sahəni əhatə edirdi. Toponimika xalqımızın tarixidir, sərhədlərimizdir, yurdumuzdur. Dilçilik baxımdan bu toponimləri araşdırarkən tarixin qaranlıq qatlarından türk tayfalarının izləri, mədəniyyəti, kökləri haqqında dəyərli məlumatlar əldə etdim". Həmin məlumatlar isə, nə az, nə də çox, 48 illik bir mərhələni əhatə edirdi və beləliklə də, Qara Məşədiyev 1881-ci ildən 1929-cu ilə kimi Tiflisdə nəşr olunmuş, toplu halda 46 cilddən ibarət "Qafqazın ərazi və tayfalarının təsviri məcmuəsi"nin fundamental təhlilinə başladı. Həmin dissertasiyanın ərsəyə gəlməsi ilə bağlı bir müəllif yazısında alimin hansı əziyyətlər bahasına başladığı işi bitirməsi belə qeyd olunurdu: "Sözügedən mənbənin tədqiqi ilə daha çox rus, erməni müəllifləri məşğul olurdular. Onlar məcmuədə - onun bütün 46 cildində Azərbaycan mənşəli toponimləri, hidronimləri və antroponimləri, onların rus dilində yazılışına əsaslanaraq, "erməni mənşəli" kimi qələmə verməyə çalışmışdılar. Qara Məşədiyev bu yozumların əsassızlığını, elmlə heç bir əlaqəsi olmayan uydurmalar olduğunu gördü, elmi həqiqəti nağıldan ayırmağın vacibliyini və mümkünlüyünü sübuta yetirməyi qarşısına məqsəd qoydu".

Oxşar tədqiqatları ilə professor Qara Məşədiyev uzun müddətdir ki, elmimizə töhvələr verir. Bu illər ərzində onun yazdığı və çap etdirdiyi 13 monoqrafiya,150-dən çox elmi əsəri bu səbəbdən xüsusi rəğbətlə qarşılanır. Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun Müasir Azərbaycan dili şöbəsinin baş elmi işçisi Qara Məşədiyevin fəaliyyəti təkcə elmi axtarışlarla kifayətlənmir, onun çiyninə götürdüyü ictimai yük də nəzərə çarpacaq dərəcədə ağır olsa da o, həmin yükü çəkə bilmişdir. 1992-ci ildən yaxın vaxtlaradək AMEA Nəsimi adına Dilçilik İnstitutunda fəaliyyət göstərən Dissertasiya Şurasının elmi katibi olmuş, 31 nəfər doktorant və dissertanta, 26 nəfər fəlsəfə doktorluğu, 6 nəfər elmlər doktorluğu işinə rəhbərlik etməyin ağırlığını isə o, yorulmadan daşıyır.

Professor Qara Məşədiyev Milli Məclisin Toponimika Komissiyasının daimi üzvüdür. İnstitutda keçirilən elmi konfransın keçirilməsində fəal iştirakına, "Onomastika məsələləri" bölməsinə rəhbərliyinə görə filologiya elmləri doktoru, professor Qara İbrahim oğlu Məşədiyevə "Fəxri Fərman" təqdim edilmişdir. Bütün bunlarla bərabər, Qara müəllim qəlbən bağlandığı və sevdiyi işindən-elmi tədqiqatlardan bircə gün olsun belə ayrı düşmür. Bunu, onun uzun müddətli elmiaraşdırmalarının nəticəsi olaraq çap etdirdiyi kitablarının sayı da təsdiq edə bilər.

"Nitq hissələrinin semantikası" (oçerklər), "İzahlı Onomastika terminləri lügəti", "Azərbaycan toponimlərinin tarixi-linqvistik təhlili", "Azərbaycan toponimləri" Ensiklopedik lüğət (əsas müəlliflərindən biri), I cild, "Azərbaycan toponimləri" Ensiklopedik lüğət, II cild, "Bakı küçələri: adlar və talelər" və digər hələlik işıq üzü görən kitablarını onun mənalı alim ömrünün hamımıza lazım olacaq məhsulları kimi minnətdarlıqla qəbul edirik.

Bir də maraqlı olan odur ki, 80 yaşlı professor keçdiyi yol ilə bərabər, həmin yolda ona bələdçi, bəzən də dəstək olmuş müəllimlərini böyük bir hörmətlə xatırlayır: "Tələbə vaxtı da yaxşı müəllimlərim olub. Biz təqaüdlə dolanan tələbələr idik. Ancaq müəllimlərimizin qayğısını, diqqətini həmişə hiss edirdik. Cəfər Mehdiyev, Əminə Əliyeva, Tofiq Hacıyev, Yusif Seyidov, Ağamusa Axundov mənim ən yaxşı müəllimlərimdən olublar. Ağamusa Axundov həm də mənim doktorluq dissertasiyamın məsləhətçisi olub. Bax, bu müəllimlərimi görəndə, başımda papağım olsa, bu yaşımda da papağı götürürəm, onların qarşısında düz dayanıb, baş əyirəm". Etiraf edək ki, səmimiyyətdən doğan bu etiraflar o anları yaşayan və yaşamağı ilə bərabər, onu dilə gətirən insanın mənəviyyatından xəbər verir.

Bəli, bu bir insan ömrünün mənalı alim ömrü ilə gəldiyi yolun hekayətidir. 1989-cu ildə təşkil olunmuş, 1992-ci ilə qədər "Onomastika", 1992-1998-ci illərdə "Tətbiqi dilçilik və onomastika", 1998-ci ildən isə yenidən "Onomastika" adı ilə fəaliyyət göstərən "Onomastika" şöbəsinin rəhbəri olmuş, filologiya elmləri doktoru, professor Qara İbrahim oğlu Məşədiyev belə bir ömürdən məmnundur. O, təkcə özü yazdığı və özünün imzası ilə çap olunan əsərlər barədə danışmır, rəhbəri olduğu şöbənin kitablarının timsalında ortaya qoyulan əməyi barədə söz açmağı sevir.

"Azərbaycan dilinin böyük izahlı onomastik lüğəti", "Gürcüstanın Azərbaycan mənşəli toponimləri", "Azərbaycan onomastik vahidlərinin orfoqrafiya və orfoepiya prinsipləri", "Azərbaycan dilinin folklor onomastikası", "Naxçıvan Muxtar Respublikası onomastik vahidlərinin tarixi-linqvistik təhlili", "Azərbaycan toponimlərinin arealları", "Azərbaycan onomastik leksikasının tipologiya, stratiqrafiya və stratifikasiyası məsələləri", "Zaqafqaziyanın Azərbaycan toponimləri", "Əfqanıstanda türk mənşəli toponimlər", "Azərbaycan dilinin onomastikası", "Azərbaycan onomastik lüğətləri", "Onomastik lüğətlərin tərtib prinsipləri", "Azərbaycan toponimləri" və s. monoqrafiyalar şöbənin, kollektiv əməyin nəticəsidir - deyir.

Belə yaşamağa dəyər və həmin dəyərlərlə də deyirik: 80-in mübarək olsun, Qara müəllim. Qarşıda isə 90, 100 var...

***Mahirə HÜSEYNOVA***
*filologiya elmlər doktoru, professor, ADPU-nun filologiya fakültəsinin dekanı*